# BAKI DÖVLƏT UNİVERSİTETİ

**2021-ci ildə _____Sosial iş kafedrasın____-da**
**elmi plan üzrə yerinə yetirilmiş**
**elmi-tədqiqat işlərinin nəticələrinin**

# HESABATI

| | |
|---|---|
| **Mövzunun adı:** | **Azərbaycanda sosial xidmətin təşəkkül tarixi və müasir vəziyyəti** |
| **Mövzu rəhbərinin soyadı, adı və atasının adı:** | **Şəfiyev Üzeyir Atamalı oğlu** |
| **Mövzunun icra müddəti (başlama və bitmə tarixi):** | **01 yanvar 2021-ci il - 01 yanvar 2022-ci il** |

**Bakı - 2021**

**Mövzu üzrə icraçılar haqqında məlumat (icraçılar, birinci mövzu rəhbər yazılmaqla):**

| S/S | Soyadı, adı, atasının adı | Struktur | Vəzifəsi | Ştat vahidi | Elmi adı və dərəcəsi |
|---|---|---|---|---|---|
| 1. | Şəfiyev Üzeyir Atamalı oğlu | Sosial iş kafedrası | Kafedra müdiri | 1 | Dosent, sosiologiya üzrə fəlsəfə doktoru |
| 2. | Abbasova Qızılgül Yasin qızı | Sosial iş kafedrası | Müəllim | 0,5 | Professor, fəlsəfə elmləri doktoru |
| 3. | Məmmədova Rəna Oktaedr qızı | Sosial iş kafedrası | Müəllim | 1 | Dosent |
| 4. | İsmayılova Elizə Sahadulla qızı | Sosial iş kafedrası | Baş müəllim | 0,5 | Fəlsəfə üzrə fəlsəfə doktoru |
| 5. | Buqadinova Ramina Abusalat qızı | Sosial iş kafedrası | Müəllim | 0,5 | |
| 6. | Tağıyeva Tərlan Mirzəkərim qızı | Sosial iş kafedrası | Müəllim | 0,5 | |
| 7. | İsgəndərova Aysel İbrahim qızı | Sosial iş kafedrası | Müəllim | 0,5 | |

## 1 Mövzu və mövzu üzrə cari ildə yerinə yetirilmiş elmi işlər

*Plan üzrə hər bir mövzunun, hər bir elmi tədqiqat işinin aktuallığı,məqsədi və alınmış elmi nəticələr ayrılıqda göstərilməli, ad soyad tam yazılmalıdır.*

**Mövzunun adı:** Azərbaycanda sosial xidmətin təşəkkül tarixi və müasir vəziyyəti

**Mövzunun aktuallığı və məqsədi:** Müasir dövrdə sosial rifah dövləti quruculuğu qlobal miqyasda mühüm aktuallıq kəsb etməkdədir. Bir sıra dövlətlər sosial dövlət quruculuğu yolunu seçmiş və bunun üçün sosial xidmət siyasətini qeyd olunan trendə uyğun, kürəsəl çağırışlara müvafiq hazırlayır. Azərbaycanda da sosial dövlət quruculuğu istiqamətində mühüm addımlar atılmış, dövlət başçısı Prezident İlham Əliyev Azərbaycanı sosial dövlət istiqmətində inkişaf yolunu müəyyənləşdirmişdir. Tədqiqat işində əsas məqsəd Azərbaycanda sosial xidmətin təşəkkül tarixinə tarixi-müqayisəli təhlil işığında baxmaq və müasir dövrdə sosial xidmət siyasətini təhlil edərək müvafiq tövsiyə və təkliflərlə çıxış etməkdir.

**Elmi tədqiqat işi 1.** Sosial dövlət quruculuğu şəraitində Azərbaycanda sosial siyasətin əsas xüsusiyyətləri.

**Elmi tədqiqat işi üzrə çalışan əməkdaşlar:** s.ü.f.d., dos. Üzeyir Şəfiyev

Sosial dövlət quruculuğu prosesində aparılan sosial siyasətin əsas istiqamətlərini araşdıraraq təhlil etmək, bu istiqamətdə qarşıya çıxan çətinlikləri araşdırmaq, ölkəmizdə realizə edilmiş və edilməkdə olan sosial layihələri sərf-nəzər edərək təhlil ertmək, habelə inovativ sosial təşəşəbüslə çıxş etmək əsas məqsədimiz olmuşdur..Bildiyimiz kimi Azərbaycan prezidenti İlham Əliyev bir neçə ildir ki, ölkəmizi sosial dövlət elan etmişdir. Hər bir dövlətin əsas funksiyalarından biri əhalinin sosial müdafiəsini təşkil etmək, maddi nemətlərin ədalətli bölgüsünü təmin etmək, daxili siyasətin sosial yönümlülüyünü ön planda saxlamaq, vətəndaşların sosial rifah halını daim yaxşılaşdırmaqdan ibarətdir.

**Aktuallığı:** Hər bir dövlətin əsas funksiyalarından biri əhalinin sosial müdafiəsini təşkil etmək, maddi nemətlərin ədalətli bölgüsünü təmin etmək, daxili siyasətin sosial yönümlülüyünü ön planda saxlamaq, vətəndaşların sosial rifah halını daim yaxşılaşdırmaqdan ibarətdir.

**Məqsədi:** Sosial dövlət quruculuğu prosesində aparılan sosial siyasətin əsas istiqamətlərini araşdıraraq təhlil etmək, bu istiqamətdə qarşıya çıxan çətinlikləri araşdırmaq, ölkəmizdə realizə edilmiş və edilməkdə olan sosial layihələri sərf-nəzər edərək təhlil ertmək, habelə inovativ sosial təşəşəbüslə çıxş etmək  əsas məqsədimiz olmuşdur.

**Alınmış nəticələr:** İşdə sosial dövlət quruculuğunda Azərbaycanın sosial siyasət istiqamətləri təhlil olunmuş sosial layihə və proqramların mahiyyəti açılmış və onun sosial baxımdan həssas olan insanlara verdiyi töhfələr elementarist, sistemli tarixi-müqayisəli təhlil fonunda işıqlandırılmışdır. Burada həmçinin fors-major şəraitdə dövlətimizin sosial yönümlü siyasəti təqdir olunmuş və faktoloji material əsasında göştərilmişdir ki, ekstrimal situasiyada Azərbaycan dövləti həmişə vətəndaşın yanında olmuşdur.

**Elmi tədqiqat işi 2.** XVIII-XIX əsrlərdə sosial xidmətin təşkili

**Elmi tədqiqat işi üzrə çalışan əməkdaşlar:** f.e.d., prof. Qızılgül Abbasova

XVIII-XIX əsrlərdə sosial xidmətin təşkilində başlıca xüsusiyyətlər umumsivilizasiya inkişaf xüsusiyyətləri ilə birbaşa əlaqəli idi. Coğrafi kəşflərin tükənməsi dünyanın bütövləşməsi və qarşılıqlı təsirin güclənməsi ilə nəticələndi. Kapitalizm cəmiyyəti sənayə mərhələsini yaşayırdı. Qərbin, kapitalizmin təsiri getdikcə Şərq bölgələrə, o cümlədən Azərbaycana sirayət edirdi. İnsanların həyat tərzi, ünsiyyət imkanları dəyişir, istehsal münasibətlərinə təsir edirdi. Getdikcə genişlənən ictimai iaşə, xidmət sahələri ilk növbədə həyat səviyyəsi aşağı olan sosial qruplara istiqamətləndirilirdi. Müxtəlif sosial sığınacaqlar, qocalar evləri, uşaq pansionatlarla yanaşı xeyriyyəçilik fəaliyyəti də genişlənirdi.

**Aktuallığı:** Ümumiyyətlə sosial xidmət sahəsi ilk əvvəl özəl sahə kimi inkişaf etməyə başlamışdı. Şərq ölkələrdə, o cümlədən Azərbaycanda dünyəvi və dini formada sosial xidmət həyata keçirilirdi.Yəni şəriət qaydalara əsasən qarşılıqlı yardımla yanaşı tədricən özəl və dövlət sektorlarda sosial xidmət genişlənirdi.
**Məqsədi:** XVIII-XIX əsrlərdə sosial xidmətin təşkilində başlıca xüsusiyyətlərin təyin edilməsidir.
**Alınmış nəticələr:** Sosial xidmətlər və yardım həm icma, həm də bəzi sosial təsisatlar səviyyəsində (məsələn, dini qurumlar, icma idarəçiliyi) həyata keçirilirdi. Sosial münasibətlər inkişaf etdikcə ictimai uklad formaları da daha zəngin olur, bu da sosial yardım sahəsində ictimai xidmət strukturlarını yaranmasına gətirib çıxarırdı (uşa evləri, qocalar sığınacaqları və s.).

**Elmi tədqiqat işi 3.** Koronavirus infeksiyasının yayılması və Pandemiya dövründə sağlamlıq imkanları məhdud olan insanların üzləşdiyi çətinliklər
**Elmi tədqiqat işi üzrə çalışan əməkdaşlar:** dos. Rəna Məmmədova
Sağlamlıq imkanları məhdud olan insanların durumuna müxtəlif yanaşmaların (sosial və tibbi) xüsusiyyətləri nəzərdən keçirilir. Qeyd olunur ki, tibbi yanaşmada insanın xəstə olduğu əsas kimi götürülür. Sosial yanaşmada isə əlillik cəmiyyətin sosial quruluşunun ədalətsiz olduğunun nəticəsi kimi nəzərdən keçirilir. Koronavirus infeksiyasının pandemiyası sağlamlıq imkanları məhdud olan insanların vəziyyətini daha da ağırlaşdırdı. COVİD – 19 infeksiyasinin yayılmasının neqativ fəsadlarından biri insanlarda emosional gərginliyin artması oldu. Yaşından, cinsindən, sağlamlıq durumundan asılı olmayaraq insanlarda panik atakalar, narahatçılıq, qorxu hissinin artımı müşahidə olunurdu. Belə vəziyyətdə insanlara peşəkar sosial-psixoloji yardım göstərilməsi olduqca vacibdir.
**Aktuallığı:** COVİD-19 infeksiyasının yayılması cəmiyyətin bütün sferalarına mənfi təsir göstərdi. Pandemiya şəraitində əlilliyi olan şəxslərin vəziyyəti, onların üzləşdiyi problemlər xüsusi diqqət tələb edir. Bu baxımdan Koronavirus infeksiyasının yayılması və Pandemiya dövründə sağlamlıq imkanları məhdud olan insanların üzləşdiyi çətinliklərin araşdırılması və təhlil edilməsi olduqca aktual və gündəmə uyğun bir məsələdir.
**Məqsədi:** COVİD-19 infeksiyasının yaranması və yayıldığı dövrdə sağlamlıq imkanları məhdud olan insanların həyat şəraitinin dəyişilməsinin xüsusiyyətlərinin araşdırılması. Əlilliyi olan insanların düşdükləri ağır həyat durumlarının belə insanların rifahı və davranışına göstərdiyi təsirinin üzə çıxarılması.
**Alınmış nəticələr:** Araşdırma zamanı belə bir nəticəyə gəlmək olar ki, Koronavirus infeksiyasının pandemiyası sağlamlıq imkanları məhdud olan insanların vəziyyətini daha da ağırlaşdırdı. Əlilliyi olan şəxslər emosional cəhətdən daha da gərgin oldular. Yanaşı xəstəlikləri olan insanların vəziyyəti Koronavirus infeksiyasının Pandemiyası dövründə daha da kəskinləşməyə başladı.

**Elmi tədqiqat işi 4.** Aztəminatlı ailələrə sosial xidmətin göstərilməsinin əsas xüsusiyyətlərinin təhlili
**Elmi tədqiqat işi üzrə çalışan əməkdaşlar:** f.ü.f.d. Elizə İsmayılova
Əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasına, sosial cəhətdən həssas əhali qruplarının maraq və mənafelərinə cavab verən sosial iş, müstəqil Azərbaycan Respublikasının dövlət siyasətində prioritet sahələrdən biridir. Cəmiyyətin sosial problemlərinin aradan qaldırılması və ictimai həyatda digər sosial sahələrlə bərabər sosial xidmətlərin beynəlxalq normalara uyğun şəkildə tənzimlənməsi dövrümüzun ən aktual problemlərindən biridir. Sosial-iqtisadi həyatın bütün sahələrində tərəqqi proseslərinin geniş vüsət aldığı ölkəmizdə sosial cəhətdən həssas əhali qruplarının hüquqlarının etibarlı müdafiəsi, onların maddi və mənəvi tələbatlarının ödənilməsi, dolğun həyat şəraitinin təmin edilməsi istiqamətində reallaşdırılan tədbirlərin əhatə dairəsi ilbəil genişlənir. Bu baxımdan ölkəmizdə

sosial iş sahəsində yeni xidmət formalarının yaranmasına, daha effektiv nəticələrin alınması məqsədiylə müasir təlabatların ödənilməsinə istiqamətlənən yeni yanaşmalara ehtiyac vardır.

**Aktuallığı:** Sosial-iqtisadi həyatın bütün sahələrində tərəqqi proseslərinin geniş vüsət aldığı ölkəmizdə sosial cəhətdən həssas əhali qruplarının hüquqlarının etibarlı müdafiəsi, onların maddi və mənəvi tələbatlarının ödənilməsi, dolğun həyat şəraitinin təmin edilməsi istiqamətində reallaşdırılan tədbirlərin əhatə dairəsi ilbəil genişlənir. Bu baxımdan ölkəmizdə sosial iş sahəsində yeni xidmət formalarının yaranmasına, daha effektiv nəticələrin alınması məqsədiylə müasir təlabatların ödənilməsinə istiqamətlənən yeni yanaşmalara ehtiyac vardır.

**Məqsədi:** Tədqiqatın əsas məqsədi ölkəmizdə sosial işin inkişafınada mühüm sosial funksiyaları əhatə edən bir çox sahələri- hüquqi, iqtisadi-siyasi, ictimai-mənəvi əsaslarını tədqiq edib, əhalinin həssas qruplarına göstəriləcək sosial xidmətlərin inkişaf meyillərini və gələcək prespektivlərinə dair yeni tövsiyyələr hazırlamaqdır.

**Alınmış nəticələr:** Dissertasiya işinin tədqiqi zamanı fərdi iş planına uyğun olaraq mövzu üzrə ədəbiyyatın toplanılması, aktuallığın əsaslandırılması, işlənmə dərəcəsinin öyrənilməsi, təhlil edilməsi və s. işlər görülmüşdür. Toplanılmış materialların təhlili, əldə olunmuş materialların ümumiləşdirilməsi, aparılan konkret sosial tədqiqatının nəticələrinin təhlil edilməsi, dissertasiyanın fəsillər üzrə tərtibi, istifadə olunan elmi ədəbiyyatın xülasəsinin yazılması kimi işlər yerinə yetirilmişdir. Dissertasiya üzrə alınmış nəticələr elmi məqalə və məruzələr Respublika miqyasında və xarici elmi təşkilatların mətbuatında və jurnallarda çap olunmuşdur.

**Elmi tədqiqat işi 5.** Qaçqın və məcburi köçkünlük sosial işin obyekti kimi

**Elmi tədqiqat işi üzrə çalışan əməkdaşlar:** Tağıyeva Tərlan

Məlum olduğu kimi, müasir cəmiyyətin tərkib hissəsi əhaliyə sosial yardımın az və ya çox dərəcədə inkişaf etmiş sistemi təşkil edir. Onun səviyyəsi sistemdən sistemə, rejimdən rejimə, tarixi dövrdən başqa tarixi dövrə dəyişir. Həyat səviyyəsi, əsas hüquq və azadlıqların təmin edilməsi zəruri sosial yardım ölçüsünü müəyyən edir. Bu faktora həm də sabitlik və ya əksinə, siyasi sistemin münaqişə xarakteri, hakimiyyət rejiminin xüsusiyyətləri, yəni totalitar, avtoritar və ya demokratik olması təsir edir. Burada həm də siyasi hakimiyyətin sosial əsaslarının inkişafı, milli ənənələrin siyasi sistemin fəaliyyətinə təsiri nəzərə alınmalıdır. Əhalinin sosial müdafiəsinin təmin edilməsi sabitlik amillərindən biridir ki, bura ümumilikdə sosial yardımın səviyyəsinə təsir edən iqtisadi, siyasi, sosial, təşkilati amillər daxildir. Kompleks şəkildə bütün göstərilən amillər insanların sosial adaptasiyasına təsir edir.

**Aktuallığı:** Ilk növbədə qeyd olunmalıdır ki, Azərbaycanda məcburi köçkünlər böyük ərazilərdən, müxtəlif inzibati vahidləri təşkil edən yerlərdən başqa yerlərə köçməli olmuşlar. Yəni sosial struktur baxımından burada yekcinslik olmamışdır, yerini dəyişən əhali öz sosial statusuna, peşə hazırlığına, həyat tərzinə görə müxtəlif təbəqələri təmsil edirdilər. Əhalinin məskunlaşdığı ərazilər müxtəlif idi. Bununla belə məcburi köçkünlərin xeyli hissəsi məhz şəhərlərdə yaşamağa məcbur olmuşlar. Istənilən halda burada sosial adaptasiyadan danışmaq lazımdır. Hesab edirik ki, adaptasiyanın özü olduqca çətin və ağrılı olmuşdur.

**Məqsədi:** Tədqiqatın məqsədi Azərbaycan ərazisində yaşayan məcburi köçkünlərin sosial adaptasiyasının sosioloji təhlilidir. Bunun üçün statistik göstəricilərdən, real faktların təhlilindən, aparılan tədqiqatların materiallarından istifadə ediləcəkdir.

**Alınmış nəticələr:** Nəticədə məcburi köçkünlərin sosial adaptasiyası üçün kifayət qədər geniş imkanlar meydana gəlmişdir. Burada sosial işçilərin rolu xüsusi olaraq qeyd edilməlidir. Sosial işçilərin sosial yardımın göstərilməsində rolunu müəyyən edərkən ilk növbədə bu rolun həyata keçirilməsində bir sıra obyektiv ilkin şərtləri qeyd etmək lazımdır. Bu, ilk növbədə, hüquq sistemini əhatə edən, insan hüquqları və vətəndaş hüquqlarının üzvi hissəsi olan qanunvericilik bazasıdır.

Fikrimizcə, sosial işçinin vəzifəsi ilk növbədə sosial yardıma ehtiyacı olan hər kəsə bu problemin hüquqi əsaslarını dəqiq izah etməkdən ibarət olmalıdır. Hüquq normaların sosial normalarının tərkib hissəsi olduğundan sosial yardıma ehtiyacı olan hər bir vətəndaşda öz dövlətinin hüquq münasibətlərində hərtərəfli iştirak etmək üçün müvafiq hüquqi şüurun formalaşmasına kömək etmək lazımdır. Qanunun hərəkətinin sosial mexanizmini aydın başa düşmək lazımdır.

**Elmi tədqiqat işi 6.** Sosial təhlükəli vəziyyətdə və "risk qrupuna" daxil olan ailələr
**Elmi tədqiqat işi üzrə çalışan əməkdaşlar:** Ramina Buqadinova
**Aktuallığı:** İnsanların hər birinin yaşadığı sosial problemlər müxtəlif sosial birliklər arasındakı struktur əlaqələrin, insanın bütün çoxşaxəli həyatını vahid bir halda birləşdirən ümumi təməllərin itirilməsi ilə əhəmiyyətli dərəcədə əlaqədardır. Müasir dünyada gənclərin, yəni müasir nəslin şüurunda milli dəyərlərin itirilməsi təhlükəsi böyükdür. Bu gün gənclər sosial şəbəkələrdən istifadə edərkən virtual aləmdə tez-tez yaşından, cinsindən, dinindən, dilindən asılı olmayaraq fərqli insanlarla ünsiyyət qururlar ki, bu da heç də həmişə yaxşı nəticə vermir. Nəsillər arasındakı mənəvi əlaqələr itir, qohumlar və dostlar arasındakı yadlaşma artır və bununla da gənc nəsil arasında infantillik, aqressivlik, eqoizm və mənəvi karlıq təhlükəsi artır. Cəmiyyətdə artan qarşılıqlı asılılıq, onun vəhdəti, informasiya inqilabı öz dünyagörüşlərinin və həyat prinsiplərinin düzgün olduğuna inanan əvvəlki nəsillərin yaşadıqları dünyanın dağılmasına səbəb olur. Bu zaman dəyərlərin yenidən qiymətləndirilməsi baş verir ki, bu da nəsillərin qarşıdurmasına gətirib çıxarır. Gənclər arasında məyusluq və pessimizm artdıqca Internetə, narkotiklərə və alkoqola aludəçilik kimi yeni asılılıqlar yaranır və nəticədə bir çox ailə dəyərlərinin itirilməsi baş verir. İnsan varlığının təməli dağılır, bu isə bütövlükdə həyatın mənasının humanist, ümumbəşəri məzmununun itirilməsi deməkdir.
**Məqsədi:** Tədqiqatın məqsədi nəsillər arasındakı qarşılıqlı əlaqəni müasir mənada araşdırmaq və sosial problemlər çərçivəsində həll edilməsi lazım olan məsələləri müəyyənləşdirməkdir.
**Alınmış nəticələr:** Bəşər cəmiyyətindəki nəsillərarası münasibətlər məsələsi insan həyatının bir çox aspektlərini əhatə edir və bu baxımdan də sosial problemlərin vaxtında həll edilməsi hər bir ölkə və bütün dünya üçün son dərəcə aktualdır. Nəzərdən keçirdiyimiz sosial problemlər ailədəki, məktəbdəki və müxtəlif həyat formalarındakı münasibətlər ətrafında cəmlənmişdir. Sosiallaşma (gənc nəslin peşəyönümü daxil olmaqla), tənha, boşanmış qadının vəziyyəti, yaşlıların vəziyyəti, o cümlədən tənha insanların vəziyyəti ayrı-ayrılıqda nəzərdən keçirilmiş və bu problemlərin mümkün olan həlli yolları göstərilmişdir.

**Elmi tədqiqat işi 7.** Ahıllarla sosial işin təşkilinin tarixi kökləri
**Elmi tədqiqat işi üzrə çalışan əməkdaşlar:** Aysel İsgəndərova
Sosial ədalət insanları tarix boyu müşayət edən sosial təzahülərdən biri olmuşdur. Hələ lap qədim dövrdə insanlar fərdi və kollektiv maraqlar arasında kompromiss yolların daha uyğun formalarını axtarmaq kimi problemlə qarşılaşmışlar. Get-gedə sosial əlaqələrin mürəkkəbləşməsi ilə əlaqədar olaraq bu problem daha da zəruriləşərək həlli heç də asan olmayan məsələyə çevrilmişdir. Bu yolda hər kəsi qane edəcək yeni-yeni mexanizmlər − siyasət və hüquq yaranmağa başlamışdır. İnsanların birgə yaşadığı və fəaliyyət göstərdiyi bütün sferalar –iqtisadi, siyasi-hüquqi, sosial-mədəni sferalar özlərinə xas inkişaf strukturuna malik olsalar da onları bir ümumi ideya-sosial ədalət birləşdirir. Məhz buna görə sosial ədalət sferasında sosioloji metodların və normativ qiymətləndirmə analizinin çox böyük əhəmiyyəti var. Bu metodlardan ya birgə ya da ayrı-ayrılıqda istifadə edilir. Çünki, tədqiqatın mərkəzində real insan − öz dövrü üçün xarakterik xüsusiyyətləri olan aktiv yaradıc şəxsiyyət dayanır.
**Aktuallığı:** Məlumdur ki, müasir dünyada və Azərbaycanda cəmiyyətin inkişafı ilə sosial ədalətə olan

ehtiyac günü-gündən artmaqdadır. Belə ki, sosial ədalət yaranan problemlərin vaxtında həll edilməsi və resusrların əhali qrupları arasında bərabər paylanmasına xidmət etmiş olur. Həmçinin sərvət bölgüsü, şəxsi fəaliyyət imkanları və sosial imtiyazlarla ölçülən şəxs və cəmiyyət arasında qarşılıqlı əlaqələrin tənzimlənməsi üçün sosial ədalət müasir cəmiyyətdə olduqca mühüm rol oynayır. Sosial ədalət uğrunda cari qlobal hərəkatlar sosial işin də əsas diqqətini bu istiqamətə çəkməkdədir.

**Məqsədi:** Müasir Azərbaycanda sosial ədalətin sosial-mədəni norma və prinsipləri və onun konkret realizasiya formaları arasında ziddiyyətin üzə çıxarılması

**Alınmış nəticələr:** Ədalət cəmiyyət həyatının təməl prinsipidir, müəyyən ənənəyə söykənir və cəmiyyətin əsas inteqrasiya elementlərindən biri rolunu oynayır. Cəmiyyətdə ədalətə nail olmadan ölkəni inkişaf yoluna çıxarmaq mümkün deyil. Ədalətlilik ölkənin sosial-iqtisadi inkişafından ədalətli şəkildə xalqa pay düşməsi, Azərbaycan dövləti tərəfindən milli sərvətlərdən əldə olunan gəlirlərin insanlarımıza ədalətli şəkildə çatdırılmasıdır. Ədalətlilik, eyni zamanda cəmiyyətdə bazar iqtisadiyyatının yaratdığı ziddiyyətlərin hansısa bir zümrəyə ziyan vurmasının qarşısının alınması deməkdir. Bu, Azərbaycan cəmiyyəti üçün olduqca əhəmiyyətli bir prinsipdir. Cəmiyyətdə ədalət olmasa, qarşıdurma qaçılmazdır. Bütün cəmiyyətlərin tarixi göstərir ki, ədalət prinsipi pozulduqda qarşıdurma meyilləri güclənir. Bu isə xaosa və anarxiyaya gətirib çıxara bilər. Sosial ədalət dedikdə, hər bir ailənin, hər bir vətəndaşın rifahının yaxşılaşdırılması, cəmiyyətin idarəçiliyində hər kəsin iştirakının təmin edilməsi, azad iqtisadi münasibətlərin təminatı və bu kimi digər məsələlər nəzərdə tutulur.

## 2 Hesabat dövründə alınmış elmi nəticələr, onların yenilik dərəcəsi

*Nəticələr səlis və konkret yazılmalıdır*

1. İşdə sosial dövlət quruculuğunda Azərbaycanın sosial siyasət istiqamətləri təhlil olunmuş sosial layihə və proqramların mahiyyəti açılmış və onun sosial baxımdan həssas olan insanlara verdiyi töhfələr elementarist, sistemli tarixi-müqayisəli təhlil fonunda işıqlandırılmışdır. Burada həmçinin fors-major şəraitdə dövlətimizin sosial yönümlü siyasəti təqdir olunmuş və faktoloji material əsasında göştərilmişdir ki, ekstrimal situasiyada Azərbaycan dövləti həmişə vətəndaşın yanında olmuşdur.
2. Azərbaycan tarixində sosial xidmət və sosia yardım problemi indiyə qədər tarixçilər tərəfindən ümumi şəkildə qiymətləndirilmiş və təhlil edilmişdir.
3. COVİD-19 infeksiyasının Pandemiyası Azərbaycan cəmiyyəti və ümumilikdə bütün dünya icması üçün yeni bir hadisədir. Belə durumda cəmiyyətin müxtəlif təbəqələrinin, o cümlədən sağlamlıq imkanları məhdud olan insanların həyatında ciddi dəyişikliklər baş verir. Bu dəyişikliklərin nəzərdən keçirilməsi və təhlili, onların əlilliyi olan insanların yaşayışına göstədiyi təsirinin tədqiq olunması araşdırılan mövzunun yeniliyini təşkil edir.
4. Dissertasiya işinin tədqiqi zamanı fərdi iş planına uyğun olaraq mövzu üzrə ədəbiyyatın toplanılması, aktuallığın əsaslandırılması, işlənmə dərəcəsinin öyrənilməsi, təhlil edilməsi və s.işlər görülmüşdür. Toplanmış materialların təhlili, əldə olunmuş materialların ümumiləşdirilməsi, aparılan konkret sosial tədqiqatın nəticələrinin təhlil edilməsi, dissertasiyanın fəsillər üzrə tərtibi, istifadə olunan elmi ədəbiyyatın xülasəsinin yazılması kimi işlər yerinə yetirilmişdir.
5. Bəşər cəmiyyətindəki nəsillərarası münasibətlər məsələsi insan həyatının bir çox aspektlərini əhatə edir və bu baxımdan də sosial problemlərin vaxtında həll edilməsi hər bir ölkə və bütün dünya üçün son dərəcə aktualdır. Nəzərdən keçirdiyimiz sosial problemlər ailədəki, məktəbdəki və müxtəlif həyat formalarındakı münasibətlər ətrafında cəmlənmişdir. Sosiallaşma (gənc nəslin peşəyönümü daxil olmaqla), tənha, boşanmış qadının vəziyyəti, yaşlıların vəziyyəti, o cümlədən tənha insanların vəziyyəti ayrı-ayrılıqda nəzərdən keçirilmiş və bu problemlərin mümkün olan həlli yolları göstərilmişdir.

| | |
|---|---|
| | 6. Nəticədə məcburi köçkünlərin sosial adaptasiyası üçün kifayət qədər geniş imkanlar meydana gəlmişdir. Burada sosial işçilərin rolu xüsusi olaraq qeyd edilməlidir. Sosial işçilərin sosial yardımın göstərilməsində rolunu müəyyən edərkən ilk növbədə bu rolun həyata keçirilməsində bir sıra obyektiv ilkin şərtləri qeyd etmək lazımdır. Bu, ilk növbədə, hüquq sistemini əhatə edən, insan hüquqları və vətəndaş hüquqlarının üzvi hissəsi olan qanunvericilik bazasıdır. Fikrimizcə, sosial işçinin vəzifəsi ilk növbədə sosial yardıma ehtiyacı olan hər kəsə bu problemin hüquqi əsaslarını dəqiq izah etməkdən ibarət olmalıdır.<br>7. Sosial ədalət nisbətən yeni anlayışdır və nəzərə alsaq ki, cəmiyyətin təməl prinsiplərindən biridir, onda qlobal hərəkətliliyin sosial tədqiqi məhz bu anlayışa da yeni bir yanaşma olmuşdur. |
| **3** | **Hesabat dövründə alınmış ən mühüm elmi nəticələr**<br>*Ən mühüm nəticələr səlis və konkret yazılmalıdır* |
| | Yoxdur |
| **4** | **Mövzunun yerinə yetirilməsi zamanı istifadə olunan üsul(lar), cihaz(lar) və yanaşma(lar)** |
| | 1.Sistemli-struktur təhlili.<br>2.Anket.<br>3.Bioqrafik metodu.<br>4.Müsahibə metodu.<br>5.Müşahidə metodu. |
| **5** | **a) Mövzu üzrə beynəlxalq jurnallarda çıxan məqalələr**<br>*Müəlliflərin ad və soyadları, jurnalın adı tam şəkildə yazılmalı;*<br>*Dərc olunmuş, qəbul olunmuş və ya çapa göndərilmişdir kimi göstərilməli;*<br>*Məqalələrin surətləri hesabata əlavə edilməli və mənbənin internetdəki linki göstərilməlidir* |
| | 1. Məmmədova Rəna. Трудности у людей с ограниченными возможностями здоровья в Азербайджане в период Пандемии. Paris 07-08 fevral 2021, səh.783-789 (məqalə)<br>2. Tağıyeva Tərlan. “Особенности адаптации вынужденных переселенце к новой социальной среде”nəşr-KANT: Social science & Humanities, 2021.səh.24-29 (məqalə)<br>3. Tağıyeva Tərlan. “Научно-теоретические подходы к проблеме миграции в современной науке”. nəşr- Alma mater (Вестник высшей школы) № 1 2021 январь, səh 115-120 (məqalə)<br>4. Eliza İsmayılova. “Filoloji elmlər innovativ tədqiqatlar kontekstində” adlı Beynəlxalq elmi-praktik onlayn konfrans. İnsan sağlamlığının qorunması əhalinin sosial təminatıdır. Səh.255-258, 24 dekabr 2020 (məqalə)<br>5. Eliza İsmayılova. Labyrinths of Reality. Collection of scientifical works (based on materials of the XI International scientific and practical conference) All our publications are included in the international scientometric database and published in Canada. Labyrinths of Reality: Collection of scientifical works / edited by M. Zhurba. Protection of the human health is the guarantte of the social welfare of population. February 14-15, 2021. Səh.109-114 (məqalə) |
| | *b)* **Mövzu üzrə digər jurnallarda çıxan məqalələr**<br>*Müəlliflərin ad və soyadları tam şəkildə yazılmalı;*<br>*Dərc olunmuş, qəbul olunmuş və ya çapa göndərilmişdir kimi göstərilməli;*<br>*Məqalələrin surətləri hesabata əlavə edilməli və mənbənin internetdəki linki göstərilməlidir* |

| | |
|---|---|
| | 1. Üzeyir Şəfiyev. Koronavirus (covid-19) pandemiyası dövründə Azərbaycan dövlətinin sosial siyasəti Sosial tədqiqatlar elmi-analtik jurnalı cild 1, №1, 2021, səh.143-152 (məqalə)<br>2. Üzeyir Şəfiyev. İşğaldan azad edilmiş ərazilərə böyük qayıdışla bağlı dövlətin sosial siyasətinin əsas istiqamətləri. Azərbaycan Respublikası Təhsil nazirliyi Bakı Biznes Universiteti. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 98-ci il dönümünə həsr olunmuş "Qlobal iqtisadi çağrışlar: Azərbaycanın işğaldan azad edilmiş ərazilərində sosial-iqtisadi inkişafın əsas istiqamətləri" mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları. Bakı,6 may ,2021-ci il.səh.224-232 (məqalə)<br>3. İsmayılova Eliza. İsmayılova Eliza Sahadulla qızı . Pandemiya dövründə Azərbaycanda Sosial iş. **https://www.academia.edu/51511505/Social_work_in_Azerbaijan_during_pandemic (məqalə)**<br>4. Qızılgül Abbasova. Эфендиев Ф.М. Процессы обобщения в науке // Naukove pìznannâ. Metodologìâ ta tehnologìâ, Выпуск 2 (48), 2021, с. 70-79, İndex Copernicus bazası (məqalə) |
| 6 | **Mövzu üzrə monoqrafiyalar**<br>*Müəlliflərin ad və soyadları tam şəkildə yazılmalı;*<br>*Monoqrafiyanı çap olunduğu və ya çapa göndərilməsi göstərilməli;*<br>*Monoqrafiyanın üz qabığı, titul vərəqi (monoqrafiyanın 1-ci və 2-ci səhifəsi), mündəricat və buraxılış məlumatlarının verildiyi səhifələrin surətləri hesabata əlavə olunmalıdır.* |
| | Yoxdur |
| 7 | **Mövzu üzrə konfrans materialları**<br>*Müəlliflərin ad və familiyaları tam şəkildə yazılmalı;*<br>*Materialın dərc olunduğu, qəbul olunduğu və ya çapa göndərildiyi qeyd olunmalı:,*<br>*Materialların surətləri hesabata əlavə edilməli və mənbənin internetdəki linki göstərilməlidir* |
| | Yoxdur |
| 8 | **Mövzu üzrə tezislər**<br>*Müəlliflərin ad və soyadları tam şəkildə yazılmalı:*<br>*Tezisin dərc olunması, çapa qəbul olunması və ya çapa göndərildiyi qeyd olunmalı;*<br>*Tezislərin surətləri hesabata əlavə edilməli və mənbənin internetdəki linki göstərilməlidir.* |
| | 1. İsmayılova Eliza. VII.TURKCESS-2021. (VI. International Symposium on Educational and Social Sciences). 01-03 sentyabr 2021-ci il tarixində Şimali Kipr Türkiyə Dövlətində /KKTC/ "Toplumsal Değişim ve İnnovasyon" adlı "7.TURKCESS Eğitim ve Sosyal Bilimler Kongress"i Kıbrıs Sağlık ve Toplum Bilimleri Universitetində təşkil olunmuş konfrans hibrit (onlayn/ənənəvi) keçirilmişdir. «AZƏRBAYCANDA SOSİAL XİDMƏTƏ YENİ YANAŞMALAR**»,** "AZERBAYCAN'DA SOSYAL HİZMETE YENİ YAKLAŞIMLAR" KKTC. 2021. */Beyn.Konf.Tezis/.* s.260 (tezis)<br>2. İsgəndərova Aysel. "Sosial iş sferasında sosial ədalətin yeri və rolu". Gənc tədqiqatçıların Respublika elmi-praktiki konfransının materialları, 20 oktyabr 2021. səh.261-263, Bakı Dövlət Universiteti. (tezis) |
| 9 | **İxtiraçılıq, patent-lisenziya fəaliyyəti və səmərələşdirici təkliflər**<br>*Məlumatlar nümunədə göstərilən qaydada daxil edilməlidir.* |
| | Yoxdur |
| 1 | **Mövzu üzrə elmi məruzələr (seminarlar, konfranslar, dəyirmi masalar və s. çıxışlar)**<br>*Məlumatlar nümunədə göstərilən qaydada daxil edilməli, sədr, təşkilatçı və ya iştirakçı olması göstərilməlidir.* |

| | |
|---|---|
| 0 | |
| | 1. Üzeyir Şəfiyev. Post müharibə dövründə sosial işin verə biləcəyi töhfələr. Bakı Dövlət Universitetinin (BDU) Sosial iş kafedrası və “Azərbaycan Sosial İş” İctimai Birliyinin birgə təşkilatçılığı ilə “Postmüharibə dövründə sosial işin verə biləcəyi töhfələr” mövzusunda Beynəlxalq elmi konfransda çıxış. 16-17 noyabr 2021. https://youtu.be/h0G2j9iV5zg<br>2. Üzeyir Şəfiyev. “İctimai münasibətlər və siyasi dialoq”. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin təşkilatçılığı ilə videokonfrans formatında “Siyasi dialoqun Azərbaycan modeli” adlı görüş https://xalqqazeti.com/mobile/az/news/70318<br>3. Abbasova Qızılgül. Влияние цифровых процессов на формирование толерантности в семье // Современный PR: теория, практика, образование: материалы XIII Междунар. науч.-практ. конф. / редкол.: Н.Э. Валитова, Э.С. Гареев, И.Б. Ковалева, А.К.Сулейманова и др.; под общ. ред. Н.Э. Валитовой, Э.С. Гареева. – Уфа: Изд-во УГНТУ,2021. |
| 11 | **Yerli və xarici həmkarlarla əlaqələr**<br>*Məlumatlar nümunədə göstərilən qaydada daxil edilməlidir.* |
| | 1. İsmayılova Eliza. Təhsildə Yeni Çağırışlar II Beynəlxalq Forumu. 1 noyabr 2021. https://fb.me/e/4zUYgqrSN (sertifikat)<br>2. İsmayılova Eliza. Collection of scientifical works (based on materials of the XI International scientific and practical conference February 14-15, 2021file:///D:/Documents%20and%20Settings/User/My%20Documents/Downloads/conf56%20(6).pdf (sertifikat) |
| 12 | **Tələbələrin və gənc tədqiqatçıların mövzu üzrə elmi-tədqiqata cəlb olunması**<br>*Tələbənin və elmi rəhbərin adı, soyadı tam yazılmalıdır.*<br>*Layihələr, məqalələr, konfrans materialları olması, onlara aid məlumat göstərilməlidir* |
| | 1. İsmayılova Eliza. SEP fakültəsi I kurs ( Sosial iş kafedrası az/b, qiybi) Kərimli Altay Babakərim oğlu, (elmi rəhbər: kafedranın professoru, fəlsəfə elmlər doktoru Abbasova Qızılgül Yasin qızı) |
| 13 | **Tələbələrin və gənc tədqiqatçıların elmi məruzələri (seminarlar, konfranslar, dəyirmi masalar və s. çıxışlar)**<br>*Məlumatlar nümunədə göstərilən qaydada daxil edilməlidir.* |
| | Yoxdur |
| 14 | **Elmi problem və ya mövzu üzrə qrant layihəsi**<br>*Layihənin adı, rəhbəri, donor təşkilatın adı, layihənin ümumi dəyəri, BDU-nun layihədəki payı, mövzu icraçılarının təmsil olunması göstərilməlidir.* |
| | Yoxdur |
| 14 | **Mükafatlar və təltiflər haqqında**<br>*Məlumatlar nümunədə göstərilən qaydada daxil edilməlidir.* |
| | Yoxdur |
| 15 | **Kitab, dərslik, dərs vəsaiti, metodik vəsait, metodik göstəriş**<br>*Əməkdaşın adı və soyadı tam göstərilməklə, vəsait, adı, nəşr ili, yazı dili, nəşriyyat, şəh.* |

| | |
|---|---|
| | 1. Abbasova Qızılgül və İsgəndərova Aysel, bakalavr pilləsi üçün dərs proqramı, “Sosial işə giriş”, 2021, ingilis dili, “Füyuzat” nəşriyyatı, Bakı<br>2. Abbasova Qızılgül və İsgəndərova Aysel, bakalavr pilləsi üçün dərs proqramı, “Ahıllarla sosial iş”, 2021, ingilis dili, “Füyuzat” nəşriyyatı, Bakı<br>3. Abbasova Qızılgül və İsgəndərova Aysel, bakalavr pilləsi üçün dərs proqramı, “Əlilliyi olan şəxslərlə sosial iş”, 2021, ingilis dili, “Füyuzat” nəşriyyatı, Bakı<br>4. Məmmədova Rəna. Proqram, “Социальная работа с беженцами и вынужденными переселенцам” 2021, rus., Bakı Dövlət Universiteti nəşriyyatı<br>5. Məmmədova Rəna. Proqram, “Социальная работа с людьми с инвалидностью” Соавтор - Мамедова Джейла Закир гызы. 2021, rus., Bakı Dövlət Universiteti nəşriyyatı<br>6. Məmmədova Rəna. Proqram, “Социальная работа с пожилыми”. 2021, rus., Bakı Dövlət Universiteti nəşriyyatı |
| 16 | **Beynəlxalq elmi əlaqələr**<br>*Əməkdaşın adı və soyadı tam göstərilməklə, hansı ölkə, şəhər və müəssisədə, hansı məqsədlə, hansı müddədtə olmuşdur.* |
| | Yoxdur |
| 17 | **Keçirilmiş elmi konfranslar**<br>*Adı, səviyyəsi (beynəlxalq ya yerli), keçirilmə tarixi, müddəti, məkan, birgə müəssisələr, iştirakçıların sayı, internet linki göstərilməklə* |
| | Yoxdur |
| 18 | **Elmi kadrların attestasiyası**<br>*Adı, soy ad tam yazılmalı, elm sahəsi və ixtisas, attestasiyanın keçirilmə tarixi, məkan, diplom nömrəsi, hansı müəssisə tərəfindən verilmişdir göstərilməlidir.* |
| | **1.** Yılmayan Adil Mehmet Nuh oğlu. 2 sentyabr 2021-ci il<br>**2.** Buqadinova Ramina Abusalatovna. 2 sentyabr 2021-ci il<br>**3.** Əliyev Ülvi Məmmədəli oğlu. 30 noyabr 2021-ci il<br><br>**Elmi dərəcə almışdır:** Sosiologiya üzrə fəlsəfə doktoru<br>**Elmi ad almışdır:**<br>**Digər:** |
| 19 | **Dissertant və doktorantlar**<br>*Adı, soyad tam yazılmalı, elm sahəsi və ixtisas, elmi rəhbər göstərilməlidir.* |
| | Yoxdur |
| 20 | **Xarici ölkədə işləyən əməkdaşlar**<br>*Adı, soy ad tam yazılmalı, elm sahəsi və ixtisas, öklə, şəhər, müəssisə, səbəbi, tarix göstərilməlidir.* |
| | Yoxdur |
| 21 | **Təsərrüfat müqaviləli elmi tədqiqat işləri**<br>*Mövzu, tarix, rəhbər, sifarişçi təşkilat, İşin həcmi (min manatla), tətbiq sahəsi və iqtisadi səmərəsi göstərilməlidir.* |
| | Yoxdur |
| 22 | **İstehsalatda tətbiq üçün hazır olan innovasiya məhsulları və yeni texnologiyalar**<br>*İcraçı, məhsulun (texnologiyanın) adı, qısa xarakteristika, müqayisəsi, müəllif şəhadətnamısi, patent, harda tətbiq olunub və ya oluna bilər, gözlənilən iqtisadi səmərə göstərilməlidir.* |

| | |
|---|---|
| | Yoxdur |
| 2<br>3 | **Bakı Dövlət Universitetinin elmi strukturları ilə əlaqə** |
| | Yoxdur |
| 2<br>3 | **STATİSTİK CƏDVƏL** |

| | **Sayı** |
|---|---|
| Xarici jurnallarda dərc olunmuş məqalə | 5 |
| Yerli jurnallarda dərc olunmuş məqalə | 4 |
| Beynəlxalq elmmetrik bazalarda indekslənmiş jurnallarda dərc olunmuş məqalə | |
| Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi yerli elmi jurnallarda dərc olunmuş məqalələr | |
| Beynəlxalq səviyyəli elmi konfranslarda çap olunmuş konfrans materialı | |
| Beynəlxalq səviyyəli elmi konfranslarda məruzə | 3 |
| Yerli elmi konfranslarda məruzə | |
| Beynəlxalq səviyyəli elmi konfranslarda çap olunmuş konfrans materialı-məqalə | |
| Beynəlxalq səviyyəli elmi konfranslarda çap olunmuş konfrans materialı-tezis | 1 |
| Yerli elmi konfranslarda çap olunmuş konfrans materialı-məqalə | |
| Yerli elmi konfranslarda çap olunmuş konfrans materialı-tezis | 1 |
| Patent (beynəlxalq) | |
| Patent (Respublika) | |
| Qrant layihəsi (beynəlxalq) | |
| Qrant layihəsi (Respublika) | |
| Qrant layihəsində iştirak edən əməkdaşlar: ___ nəfərdən | |
| Monoqrafiya | |
| Dərslik və ya dərs vəsaiti | |
| Metodik vəsait və metodik tövsiyyə | 6 |

**Elmi tədqiqat mövzusunun yerinə yetirildiyi struktur (**ETİ –şöbə, fakültə-kafedra, ETM, ETL - adı göstərilməklə**)**

**Struktur rəhbəri** ____________________ **Vəliyev Daxil Cahangir oğlu**

**Kafedra (şöbə) müdiri** ____________________ **Şəfiyev Üzeyir Atamalı oğlu**

**Mövzunun rəhbəri** ____________________ **Şəfiyev Üzeyir Atamalı oğlu**

**Tarix** ____________________

**Qeyd:**

*-Əməkdaşların adı, soyadı tam şəkildə yazılmalıdır.*
*- Məlumatlar nümunədə göstərilən qaydada daxil edilməlidir.*
*- Faktların internet ünvanı göstərilməlidir*